**Sənubər MUSTAFAYEVA**
*"Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının baş müəllimi*

# BAKI ŞƏHƏR NƏSİMİ VƏ BİNƏQƏDİ RAYON MKS-də KATALOQLAŞDIRMA İŞİNİN TƏŞKİLİ

***Açar sözlər:*** *Biblioqrafik təsvir, əsas qaydaların tətbiqi, kataloqlaşdırma işinin təşkili, milli standart, milli standartın tətbiqi.*

***Ключевые слова:*** *Виблиографическое описание, внедрение основных правил, организация каталожных работ, национальный стандарт, внедрение национального стандарта.*

***Key words:****CLS, library, information resource, library fund, information society*

*Məqalədə mərkəzləşdirilmiş kitabxana sistemlərində kataloqlaşdırma işinin təşkili məsələləri işıqlandırılır.Xüsusilə biblioqrafik təsvirə dair hüquqi normativ aktların, dövlət standartlarının və milli standartın tərtibi qaydalarına diqqət yetirilmişdir.Məqalədə Bakı şəhər Nəsimi və Binəqədi MKS-də kataloqlaşdırma işinin təşkili təcrübəsinə nəzər yetirilmişdir.*

Giriş XXI əsr qlobal informasiya mühiti Azərbaycanda kitabxana işinin inkişafında yeni meyarların formalaşmasını, modern informasiyalaşdırma imkanlarının təmin edilməsini və gücləndirilməsini tələb edir. Azərbaycan Respublikası Prezidentinin son illər kitabxana sahəsinin inkişafı ilə bağlı bir-birinin ardıncaqəbul etdiyi çoxsaylı qərarlar, o cümlədən ilk dəfə Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət proqramı Azərbaycan Dövlətinin bu sahəyə prioritet bir məsələ kimi baxdığını və kitabxana ictimaiyyətinin bu qərardan irəli gələn məsələlərin həyata keçirilməsiüçün çox böyük məsuliyyət daşımasının vacibliyini ortaya qoymuşdur.(2) Hazırda Azərbaycanda formalaşmış çoxsahəli kitabxana sisteminin aparıcı tərkib hissəsini` dövlət kütləvi kitabxanaları şəbəkəsi təşkil edir. Respublikamızda dövlət kitabxana sisteminin formalaşması əsasən XX əsrin 20-ci illərindən başlamışdır. Onlar son 90 ildən artıq bir dövr ərzində milyonlarla oxucunun mütaliə mədəniyyətinin və elmi dünyagörüşünün formalaşmasında, peşə səviyyəsinin formalaşmasında, estetik biliklərə yiyələnməsində, insanların hərtərəfli şəxsiyyət, alim, mütəxəssis, vətəndaş kimi inkişafında, cəmiyyətdə ictimai şüurun təkamülündə əvəzsiz rol oynamışdır.

Dövlət kütləvi kitabxanalar şəbəkəsinin müasir funksiyalarının düzgün dərk edilməsi, dünya informasiya məkanında baş verən proseslərlə əlaqədar yeniləşməsi buaparıcı kitabxana sisteminin inkişaf mərhələlərini, əldə etdiyi tarixi təcrübəni öyrənib ümumiləşdirmək vəzifələrini irəli sürür.



Ölkəmizdə kitabxana işinin tarixində XX əsrin 70-80-ci illəri xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan tarixində Heydər Əliyev mərhələsi kimi tarixə düşmüş bu dövr dövlət kütləvi kitabxanaları şəbəkəsinin inkişafında təkamül dövrü kimi qiymətləndirilir. Kitabxanalar cəmiyyətdə elmin və mədəniyyətin inkişafında, təhsil və tərbiyənin yüksəldilməsində, həmçinin insanların informasiya təminatında mühüm sosial institut kimi iştirak etməklə, ən çox istifadə olunan müəssisəyə çevrilmişdir. Ümummilli Lider H.Əliyev kitabxanaların fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "Kitabxana xalq, millət üçün müqəddəs bir yer, mədəniyyət, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir". (7, s.210) Məhz bu dövrdə dövlət kütləvi kitabxanaları şəbəkəsi xeyli genişlənmiş, onların informasiya ehtiyatlarının həcmi və tərkibi zənginləşmiş, maddi-texniki bazası möhkəmlənərək kadr potensialı güclənmiş, ölkənin bütün inzibati bölgələrində kütləvi dövlət kitabxanalarının mərkəzləşdirilmiş sistemləri yaradılmışdır.

Keçmiş Sov.İKP MK-nın 1974-cü ildə qəbul etdiyi "Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunu artırmaq haqqında" qərarı ölkədə kitabxanaların ideoloji, mədəni-maarif və məlumat funksiyalarını müəyyənləşdirdi, kitabxana işini müasir şəraitdə dövlətimizin həyata keçirdiyi mürəkəb iqtisadi, siyasi və sosial vəzifələrin həllinə yönəltdi. Qərarın ən mühüm və əhəmiyyətli müddəası ölkədə kitabxana sisteminin əsaslı surətdə yenidən qurulmasıilə əlaqədar idi. Bu müddəa ilk növbədə dövlət kütləvi kitabxanalar şəbəkəsinin mərkəzləşdirilməsini nəzərdə tuturdu. Qərarda deyilirdi: "1974-1980-ci illərdə şəhər və rayon kitabxanaları bazasında ümumi ştatı, kitab fondu, mərkəzləşdirillmiş komplektləşdirilməsi və ədəbiyyatın işlənməsinə malik olan vahid şəbəkənin yaradılması yolu ilə kütləvi dövlət kitabxanalarının mərkəzləşdirilməsi həyata keçirilsin".

Azərbaycanda bu mühüm sənədin respublikamızda həyata keçirilməsi üçün "Kitabxana işi haqqında" qərar qəbul edildi.Qərarın əsas müddəalarından biri kitabxana sisteminin strategiyası kimi qiymətləndirilən kitabxanaların mərkəzləşdirilməsi idi. Kitabxana işinin inkişafında keyfiyyətcə yeni mərhələ olan mərkəzləşdirmə nəticəsində hər bir şəhərdə və rayonda filial sisteminə malik olan, əvvəllər müstəqil fəaliyyət göstərmiş kitabxanalardan böyük üstünlüklərə və imkanlara malik olan vahid kitabxana müəssisələri yaradılmışdı.

Mərkəzləşdirilmiş kitabxanalar əvvəlki kimi bir-birindən ayrılıqda deyil, şəhər və rayonlarda bir-birilə əlaqədar, bir-birini tamamlayan vahid sistem kimi fəaliyyət göstərirdi. Vahid kitabxana sisteminin yaradılması şəhər və rayonlarda keçmişdə olan xırda kitab fondlarının yerinə kəmiyyət və keyfiyyətcə böyük, universal kitab fondlarının yaradılmasına səbəb olmuşdur.

Mərkəzləşmə nəticəsində respublikada 3174 filialı olan 69 mərkəzləşmiş rayon kitabxana sistemi yaradıldı. Kənd yerlərində rayon kitabxanaları mər-

kəzi kitabxana kimi, rayon uşaq kitabxanaları isə müstəqil kənd kitabxanaları və onların filialı kimi formalaşdı. Respublikamızın 8 şəhərində 111 filialı olan mərkəzləşdirilmiş sistemyaradılmışdır.(8 s., 60)

Rayon kitabxanalarının mərkəzləşdirilməsinin müvəffəqiyyətlə başaçatmasına baxmayaraq, şəhər kitabxanalarının, xüsusilə Bakı şəhər kütləvi kitabxanalarının mərkəzləşdirilməsi prosesini müəyyən obyektiv və subyektiv çətinliklər üzündən tam başa çatdırmaq mümkün olmamışdı. Mərkəzləşmə zamanı kütləvi kitabxanaların kitab fondu 5 milyon nüsxə, bu kitabxanalarda kitab verilişi 9 milyon nüsxə, oxucuların miqdarı 513 min nəfər artmış, 332 yeni kitabxana açılmışdır. (8, s.64) Respublikamızın kənd rayonlarındaMKS-lərin yaradılması kənd əhalisinə kitabxana xidmətini kökündən yaxşılaşdırmışdır.

Bakı şəhəri dövlət kütləvi kitabxanalarının vahid mərkəzləşmiş sisteminin yaradılmamasının isə bir neçə səbəbi var idi. MKS-lərin əsasnaməsinə görə əhalisi bir milyondan yuxarı olan şəhərlərdə iki mərkəzləşdirilmiş sistem: böyüklərə xidmət edən kütləvi kitabxanaların mərkəzləşdirilmiş sistemləri yaradıla bilərdi. Lakin bunların heç biri yaradılmadı və buna əsas səbəb şəhər icraiyyə komitəsinin mədəniyyət şöbəsinin, eləcə də mərkəzi şəhər kitabxanasının səriştəsiz fəaliyyəti oldu. Bu təşkilatlar tərəfindən iri şəhər şəraitində kütləvi dövlət kitabxanalarının mərkəzləşdirilmiş sistemlərinin müasir səviyyədə formalaşmasının təşkilati-metodik baxımdan düzgün müəyyənləşdirmək imkanlarının olmamasından bu proses Bakı şəhərində həyata keçirilmədi.

Uşaq kitabxanaları MKS-lərin yaradila bilməməsinə isə əsas səbəb Bakı şəhərində uşaqlara xidmətin 20 müstəqil uşaq kitabxanaları və təqribən bir o qədər də böyüklərə xidmət edən kitabxanalar tərəfindən həyata keçirilməsi ilə əlaqədar, onların vahid şəbəkədə birləşib vahid kitabxana fondu yaratmaq imkanının qeyri mümkün olması idi.

Bakı şəhərində dövlət kütləvi kitabxanalarının mərkəzləşdirilməsində mane olan digər səbəb də onların şəhərin müxtəlif inzibati rayonlarının icra hakimiyyəti orqanlarının balansında olması idi. Bakı dövlət kitabxanalarının tam mərkəzləşdirilib başa çatdırılması əsasən müstəqillik illərinə aiddir.

Məsələnin qoyuluşu:Azərbaycan Respublikası Prezidentinin 6 oktyabr 2008-ci il tarixli 3072 saylı "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" haqqında Sərəncamının Tədbirlər Planının 2.1.5 bəndinə uyğun olaraq, Bakı şəhər İcra Hakimiyyəti başçısının 2011-ci il 24 yanvar tarixli 40 nömrəli Sərəncamına, Bakı şəhər Mədəniyyət və Turizm İdarəsinin 27 yanvar 2011-ci il tarixli 04 saylı Əmrinin icrasını təmin etmək məqsədilə Bakı şəhər Mədəniyyət və Turizm İdarəsinin tabeliyində fəaliyyət göstərən kitabxanaların mərkəzləşdirilməsi həyata keçirildi.



Azərbaycanda dövlət kütləvi kitabxanalarının mərkəzləşdirilməsi kimi olduqca məsuliyyətli və mürəkkəb prosesin həyata keçirilməsi respublika Mədəniyyət Nazirliyinin gərgin işi sahəsində müvəffəqiyyətlə başa çatdırılmışdır.

Mərkəzləşdirilmiş sistemlərdə kitabxana kataloqlarının yenidən qurulması, kartotekalarınyaradılması, məlumat fondlarının təşkilionların funksiyalarınıxeyli artırmışdır. Mərkəzləşdirilmiş sistemlərdə metodik işin təşkili filiallara köməklik göstərmək, kənd əhalisinə kitabxana xidmətinin forma və metodlarını yaxşılaşdırmaq üçün şərait yaratmışdır. Mərkəzləşdirilmiş kitabxana sisteminin ştat vahidinin artması, yeni şöbələrin yaradılması bu sistemlərin ətrafındayüksək ixtisaslı mütəxəssis kadrların toplanmasına səbəb olmuşdur ki, bu da oxuculara xidmət işini yaxşılaşdırmış, oxuculara fərqli xidmət etmək üçün şərait yaratmışdir.

Hər bir MKS-in fəaliyyətinin həcmi ilk növbədə onun tərkibində olan filialların miqdarı, kitabxana fondu və oxucuların tərkibi ilə ölcülürdü.Ölkədə artıq çoxsaylı filiallar, zəngin kitab fondu və oxucu kontingenti olan iri mərkəzləşdirilmiş kitabxana sistemləri yaradılmışdır. Bunların içərisində Nəsimi və Binəqədi rayon MKS-lərinində adını qeyd etmək olar.

Nəsimi rayon MKS-i Nəsimi rayon ərazisində yerləşir. 1921-ci ilin avqust ayının 15-də təşkil edilən kitabxana 1922-ci ilin may ayının 19-dan M. Əzizbəyovun adını daşıyırdı. 2011-ci ilin yanvarın 5-dən Nəsimi rayon Mərkəzləşmiş Kitabxana Sisteminə (MKS) keçmişdir. MKS-in tərkibində 4 filial kitabxana fəaliyyət göstərir.(19)

Abonement vasitəsilə kitabxananın xidmət dairəsi Zərgərpalan, C.Cabbarlı, L.Tolstoy, Əbilov küçələri və Azadlıq prospekti arasındakı ərazilərdir. Qiraət zalı vasitəsilə kitabxanaya müraciət edən bütün oxuculara xidmət göstərilir. Ümumilikdə kitabxanada üç şöbə fəalliyyət göstərir.

- Azərbaycan ədəbiyyatı şöbəsi
- Rus ədəbiyyatı şöbəsi
- Qiraət zalı

Hər şöbədə uşaqlara və böyüklərə xidmət edən kafedralar mövcuddur. Bütün şöbələr bir-birilə sıx şəkildə və əlaqəli işləyərək kitabxana işinin təşkili, həmçinin oxuculara xidmət prosesində biri digərini tamamlayır.Nəsini rayon MKS-nin fondu 356843nüsxədir, oxucusu isə 36686 nəfərdir.(19)

Nəsimi rayon MKS-nin ümumi fondunu xarakterizə edən cədvəl: (19)

| | 2014-ci il üzrə yerinə yetirilib |
|---|---|
| Fondun ümumi həcmi | 356843 |
| Yeni daxil olan ədəbiyyatların və digər informasiya daşıyıcılarının ümumi həcmi | 539 |
| neçə adda kitab daxil olub | 154 |

| | | |
|---|---|---|
| | nüsxə etibarlı ilə | 539 |
| | elm sahələri üzrə | |
| | -təbiət və kənd təsərrüfatı elmləri | 1 |
| | -sosial-siyasi, humanitar və iqtisadiyyat elmləri | 457 |
| | -dilçilik, filologiya | 81 |
| | -fəlsəfə elmləri | |
| | -məlumat ədəbiyyatı, ensiklopediyalar | |
| | Azərbaycan dilində | 510 |
| | Xarici dillər | 29 |
| | Dövrü mətbuat (neçə adda qəzet və jurnal) | 12 |
| | Oxucuların ümumi sayı | 36686 |
| | -qulluqçular | 6925 |
| | -mütəxəsislər | 4857 |
| | -müəllimlər | 5113 |
| | -fəhlələr | 4955 |
| | -tələbə və şagirdlər, məktəbəqədər | 13578 |
| | -təqaüdçülər | 679 |
| | -digər oxucu qrupları | 579 |

MKS-ə daxil olan kitabxana filialları haqqında məlumat

| Sıra№ | İşin növləri | 2014 |
|---|---|---|
| 1. | Filiallar haqqında ümumi məlumat: | |
| | -Filialların ümumi sayı<br>O cümlədən,<br>-Ləğv olunan filiallar<br>-birləşdirilən filiallar<br>-binaları qəza vəziyyətdə olan filiallar<br>-şəxsi evlərdə yerləşən filiallar | 4<br><br><br>-<br>-<br>- |
| 2. | Filiallarda olan kitab fondunun ümumi həcmi | 268394 |
| 3. | Filiallara daxil olunmuş yeni ədəbiyyat | 820 |
| 4. | Filiallardan istifadə edən oxucuların ümumi sayı | 24731 |
| 5. | Kitab verlişi | 584075 |
| 6. | Rədd cavabları | 305 |
| 7. | Məlumat – biblioqrafiya işlərinin təşkili (biblioqrafik arayışlar və s.) | 324 |
| 8. | Keçirilən kütləvi tədbirlər | 3525 |



| | | |
|---|---|---|
| 9. | Kadrlar haqqında məlumat<br>-Filiallarda işləyən kitabxanaların ümumi sayı<br>O cümlədən<br>-İxtisaslı kadrlar | <br>45<br><br>13 |

Bakı şəhər MKS-ləri içərisində Binəqədi rayon MKS-nin də özünəməxsus yeri vardır. Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS) 27 yanvar 2011-ci ildə Binəqədi rayonunda yerləşən 8 kitabxana (V.Q.Korolenko ad. Mərkəzi Şəhər Gənclər Kitabxanası, 8-ci mkr. kütləvi kitabxanası, Ş.Qurbanov ad. kütləvi kitabxana, Biləcəri kütləvi kitabxanası, H.Cavid ad. kütləvi kitabxana, Xoca-Həsən qəsəbə kütləvi kitabxanası, Binəqədi qəsəbə uşaq kitabxanası və S.Rüstəm ad. kütləvi kitabxana) bazasında yaradılıb. (20)

Binəqədi rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemininəsas göstəriciləri:

| | |
|---|---|
| Kitab fondu(nüsxə) | 483322 |
| Oxucu (istifadəçi)sayı (nəfər) | 38987 |
| Kitab verilişi(nüsxə) | 767089 |
| Gəliş | 422385 |

Binəqədi rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin tərkibində 6 şöbə-Oxuculara xidmət şöbəsi, Uşaq şöbəsi, İnformasiya resurs şöbəsi, Komplektləşdirmə və kitabişləmə şöbəsi, Metodika və biblioqrafiya şöbəsi, 2014-cü ildən isə Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi fəaliyyət göstərir.

V.Q.Korolenko adına Mərkəzi Şəhər Gənclər Kitabxanası 2011-ci ildən Binəqədi rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası kimi fəaliyyətə başlamışdır. Binəqədi rayon MKS-nin Mərkəzi Kitabxanasında İnformasiya resurs şöbəsi, Uşaq şöbəsi və Oxuculara xidmət şöbəsi fəaliyyət göstərir.

Mərkəzi Kitabxananın əsas göstəriciləri:

| | |
|---|---|
| Kitabxana fondu(nüsxə) | 170410 |
| Oxucuların sayı (nəfər) | 15400 |
| Kitab verilişi (nüsxə) | 306835 |
| Gəliş (nəfər) | 155585 |

Qeyd etmək lazımdır ki, Nəsimi və Binəqədi MKS-lərinin fondu öz əksini kataloq və kartoteka sistemlərində tapır. Kitabxanaların kataloq və kartotekalarsistemində əlifba və sistemli kataloqlar, dövrü mətbuatın ümumi

kartotekası, mövzu kartotekaları, qəzet və jurnal məqalələrinin məlumat kartotekası, xüsusi kartotekalar və ölkəşünaslıq kartotekaları mövcuddur.

Kitabxanadamövcud olan əlifba və sistemli kartotekalar kitab fondunun tərkibini açıqlamaqla, onun məzmununu aşkara çıxararaq oxuculara kitab seçməkdə, onların mütaliəsinə rəhbərlik etməkdə mühüm rol oynayan sistemdir. Düzgün tərtib edilmiş kataloqlar oxucuların sorğularına cavab verməklə yanaşı onlarda yeni sorğuların meydana gəlməsinə səbəb olur, bu və ya digər mövzularla əlaqədar kataloqlara yenidən müraciət etmək tələbatını artırır. Onu da demək lazımdır ki, kataloqlarda verilən biblioqrafik təsvirlər müəyyən qaydalara və standartlara əsaslanır. Nəsimi və Binəqədi kütləvi kitabxanalarındamüxtəlif dövrlərdə müxtəlif təsvir qaydaları tətbiq edilmişdir.

Bibilioqrafik təsvir – sənəd haqqında biblioqrafik məlumatları əks etdirir. Bu məlumatlar sahə və ünsürlərintamlığını və ardıcıllığını təyin edən, sənədlərin ümumi əlamətlərinin eyniləşdirilməsi üçün nəzərdə tutulan müəyyən qaydalar üzrə düzülür.Bütün dövrlərdə biblioqrafik təsvirlər standartlaşdırmanın obyektini təşkil etmişdir. İlk kataloqların yaranması müxtəlif dövrlərin təsvir qaydalarına əsaslanmışdır. Hazırda isə biblioqrafik təsvirlər müəyyən standartlar üzrə tərtib edilir. Müasir dövrdə dünyanın müxtəlif ölkələrində biblioqrafik təsvirə dair 3 standart tətbiq edilir: biblioqrafik təsvirin Beynəlxalq standartı (İSBD), kataloqlaşdırmanın İngilis-Amerika qaydaları (AASR 2) və maşınla oxunan kataloqların müxtəlifMARC formatları. (15, s.42) İSBD (Biblioqrafik təsvirin Beynəlxalq standartı)- daha universaldır və ondan bütün dünyada istifadə edilə bilər. AASR 2 standartı(İngilis-Amerika qaydaları) ingilis dilli ölkələrdə tətbiq edilir.

Lakin qeyd etmək lazımdır ki, bu formatların tərtibi biblioqrafik təsvirə dair dövlət standartlarına əsaslanır ki, həmin standartların da Beynəlxalq biblioqrafik təsvir qaydalarına əsaslanması vacib şərtlərdən biridir. 1968-ci ildə Rusiyada kataloqlar üçün dövlət standartlarının layihələri təsdiq edilmiş və əsas biblioqrafik təsvir qaydaları bütün kitabxanalar üçün məcburi hesab edilmişdir. 1970-ci il yanvarın 1-dən etibarən kitabxanalarda bir sıra dövlət standartları tətbiq edilməyə başlamışdı. 1969-cu ildən etibarən isə Beynəlxalq Biblioqrafik Təsvir qaydalarının hazırlanmasına səy göstərilmişdir. Bu dövlət standartlarının qarşısındabütün kitabxanalar, idarələr, elmi idarə və texniki informasiya mərkəzləri, həmçinin də nəşriyyat üçün vahid təsvir qaydalarını özündə əks etdirmək vəzifəsini qoyurdu.

Rusiyanın və Respublikamızın kitabxanalarında on ilə yaxın bir müddətdə tətbiq edilən "Çap əsərlərinin biblioqrafik təsvir qaydalar" (7.1-76) dövlət standartı xüsusi mərhələ təşkil etmişdir. 7.1-76 dövlət standartındabiblioqrafik təsvirin 7 sahəsi müəyyənləşdurilmişdir.

XX əsrin 70-ci illərindən biblioqrafik təsvirinstandartlaşdırılması problemi ilədünyanın ən görkəmli mütəxəssisləri məşğul olmuşlar. Mütəxəssislərin



böyük bir qrupu beynəlxalq kitabxana cəmiyyətləri və idarələrikataloqlaşdırma bölmələrinə (İFLA) cəlb olunmuşlar. Beynəlxalq kataloqlaşdırma işində Rusiya mütəxəssisləri də fəal iştirak etmişlər. İFLA tərəfindən hazırlanan sənədlər silsiləsində xüsusən biblioqrafik təsvirin quruluşu, biblioqrafik təsvirin mətni, biblioqrafik ünsürlər konkretləşdirilmiş və bu da bir sıra ölkələrdə milli təsvir qaydalarının yaradılması və yeniləşməsi üçün bazaya çevrilmişdir.

Bu məqsədlə 1984-cü ildəRusiyada 7.1-84 "Sənədlərin biblioqrafik təsvir qaydaları" adlıyeni Dövlət standartı hazırlanıb çap edilmişdir. 7.1-84 dövlət standartında təsvirlərin funksiyaları dəqiqləşdirilmiş, onun əsas növləri və quruluşu müəyyənləşdirilmişdir. Standartda ilk dəfə olaraq biblioqrafik təsvirlər obyektinə görə 3 qrupa bölünmüşdür: monoqrafik təsvirlər, toplu təsvirlər, analitik təsvirlər. Standartda biblioqrafik təsvirin 7 sahəsi müəyyənləşdirilmişdir.

Qeyd etmək lazımdır ki, 7.1-84 standartı biblioqrafik təsvirə dair dovlət standartlarının üçüncü nəslinə aiddir (7.1-69; 7.1-76; 7.1-84) və standart uzunömürlü olaraq 20 ilə yaxın bir dövr ərzində Rusiyanın kitabxanalarında tətbiq edilmişdir. QOST 7.1-69 "Biblioqrafiya və informasiyanəşrləri üçün çap əsərlərinin təsviri" standartı 7 il, QOST 7.1-76 "Çap əsərlərinin biblioqrafik təsviri" standartı 8 ildən artıq bir dövr ərzində kitabxanalarda tətbiq edilmişdir. Hər bir standarta yenidən nəzər salınması onların Beynəlxalq biblioqrafik təsvir qaydalarına(İSBD) uyğunlaşması ilə əlaqədar idi. 7.1-76 standartı Beynəlxalq biblioqrafik təsvir qaydalarına keçid mərhələsini təşkil etsə də ciddi dəyişikliklərə görə ondan fərqlənirdi. QOST 7.1-84 standartı daha çox Beynəlxalq təsvir qaydalarına yaxşılaşdırılsa da burada bəzi prinsipial fərqlərə yer verilmişdi.(4, s.25)

Buna görə də Rusiyadayeni bir standartın yaradılnması əsas məsələ kimi qarşıda dururdu. Bu məqsədlə 2003-cü ildə "Biblioqrafik yazı.Biblioqrafik təsvir"adlı Beynəlxalq Dövlətlərarası standartı təsdiq edilmişdir ki, bunun da əsas məqsədi biblioqrafik yazıların mübadiləsi üçün Rusiya və Beynəlxalq kataloqlaşdırma qaydalarını biri-birinə yaxınlaşdırmaqdan ibarət olmuşdur.

Son illərdə Respublikada kitabxana işi sahəsində baş verən yeniliklər, xüsusilə informasiya texnologiyalarının tətbiqinin nəticəsində elektron kitabxana və elektron kataloqların yaradılması, milli kitab fondunun surətlə atrması, elektron sənəd fondunun artması, cəmiyyətdə baş verən qlobal proseslər ictimai həyatın bütün sahələrinə əhəmiyyətli dərəcədə öz təsirini göstərmişdir. 1991-ci ildə Azərbaycan Respublikası ikinci dəfə öz müstəqilliyini qazanaraq dünya dövlətləri tərəfindən tanınmış, diplomatik münasibətlər yaratmışdır. Artıq öz müstəqilliyini əldə edən Azərbaycan Respublikasında bütün sahələrdə olduğu kimi kitabxana işinin inkişafı sahəsinə dair bir sıra sərəncamlar verilmiş, Dövlət Proqramları qəbul edilmişdir. Bu baxımdan 2013-cü ildə Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət

Komitəsi tərəfindən qəbul edilən "Biblioqrafik yazı.Bibliorafik təsvir (Ümumi tələblər və tərtib qaydaları)" adlı Dövlət Standartı xüsusi əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının müstəqilliyinə qədər bə ondan sonrakı dövrdəRespublika kitabxanalarında Rusiyada qəbul edilən Dövlət standartları (7.1-69, 7.1-76; 7.1-84) tətbiq edilirdi. Hazırkı dövrdəistər Respublikanın iri elmi kitabxanalarının və Mərkəzləşdirilmiş kitabxana sistemlərinin ənənəvi kataloqlarında7.1-84 "Sənədlərin biblioqrafik təsvir qaydaları" adlı Rusiya Dövlət Standartı tətbiq edilməkdədir. Buna görə də 2013-cü ildə Respublikada biblioqrafik təsvirə dair ilk Milli Dövlət Standartının qəbul edilməsi xüsusi əhəmiyyətə malikdir. Burada əsas məqsəq biblioqrafik yazıların mübadiləsi üçün Azərbaycan və Beynəlxalq kataloqlaşdırma qaydalarını bir-birinə yaxınlaşdırmaqdan ibarət olmuşdur.

Biblioqrafik təsvirə dair Azərbaycan Milli Dövlət standartı bir sira beynəlxalq standartlara əsaslanaraq tərtib edilmişdir."Biblioqrafik yazı. Biblioqrafik təsvir (Ümumi tələblər və tərtib qaydaları)" adlı Milli Dövlət Standartı 7 bölmədən ibarətdir.Bunlar tətbiq sahəsi, normativ istinadlar, terminlər və onların təyinatı, ümumi müddəalar, birsəviyyəli biblioqrafik təsvirlər, coxsəviyyəli biblioqrafik təsvirlər, analitik biblioqrafik təsvirlər kimi qruplaşdırılmışdır. Bu standart Rusiya Federasiyasının Mətbuat üzrə Komitəsinin Rusiya Kitab Palatası, Rusiya Dövlət Kitabxanası, Standartlaşdırma üzrə "Elmi Texniki informasiya, kitabxana və nəşiyyat işi" Texniki Komitəsi tərəfindən hazırlanmış dövlətlərarası standartının əsasında tərtib edilmişdir.

Standart kitabxanalar, elmi-texniki informasiya orqanları, dövlət biblioqrafiya orqanları, naşirlər, biblioqrafik fəaliyyəti həyata keçirən digər təşkilatlar tərəfindən tərtib edilən sənədlərin təsvirində tətbiq edilmək məqsədilə nəzərdə tutulmuşdur. Standartdabiblioqrafik təsvirin tərtib edilməsinin obyekti aşağıdakl kimi xarakterizə edilmişdir: bütün dərc edilən sənəd növləri və müxtəlif daşıyıcılarda dərc edilməmiş sənədlər – kitablar, seriyalı və digər nəşri davam edən resurslar, not, kartoqrafik, audiovizual, təsviri incəsənət, normativ-texniki sənədlər, mikrofilmlər, elektroninformasiya resursları, digər üçölçülü süni və təbii obyektlər, sənədlərin tərkib hissəsi, eyni tipli və müxtəlif tipli sənədlər qrupu.

Standardaəsasən biblioqrafik təsvirlər obyektinə görə 3 yerə ayrılmışdır:

1. Birsəviyyəli təsvirlər, çoxsəviyyəli təsvirlər, analitik təsvirlər.

Milli Dövlət standartında biblioqrafik təsvirin 8 sahəsi müəyyənləşdirilmişdir. Sahələr biblioqrafik təsvirdə biri-birindən nöqtə və tire(.-) işarəsi ilə ayrılır. Standartda biblioqrafik təsvirinsahə və ünsürləri aşağıdakı ardıcıllıq üzrə verilmişdir. Sahələr daxilində biblioqrafik təsvirin ünsürləri müəyyənləşdirilmidir ki, hər ünsürün əvvəlindədə ona məxsus olan durğu işarəsi tərbiq edilir.

1. Sərlövhə və məsuliyyətlik haqqındasahə



2. Nəşr sahəsi
3. Xüsusi məlumat sahəsi
4. Buraxılış məlumatları sahəsi
5. Fiziki xarakteristika sahəsi
6. Seriya sahəsi
7. Qeyd sahəsi
8. Standart nömrə (və ya onun alternativi) əldə olunma şərtləri sahəsi(3, s.12-14)

Nəticə:Nəticədə deyə bilərik ki, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Milli Kitabxanası tərəfindən işlənib, təqdim edilən və Azərbaycan Respublikasının Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin 20.11.2013 türixli 119 saylı əmri ilə təsdiq edilib qüvvəyə minən AZS 754-2013 "Biblioqrafik yazı. Biblioqrafik təsvir " adlı dövlət standartında Respublikada çap edilən bütün sənəd növləri nəzərə alınmışdır. Standartda birsəviyyəli, çoxsəviyyəli, analitik təsvirlərin tərtibi metodikası kifayət qədər izah edilmişdir. Standartdakitabxana işçilərinə kömək məqsədilə biblioqrafik yazı nümunələri verilmişdir. Burada bir, iki, üç müəllifli nəşrlərin müəllif və sərlövhə üzrə təsvirinə, rəsmi sənədlərin təsvirinə, çoxcildli və seriyalı nəşrlətinin təsvirinə, dövri nəşrlərin, izonəşrlərin, kartoqrafik nəşrlərin, not nəşrlərinin və digər nəşrlərin təsvirinə yer ayrılmışdır.

Qeyd edildiyi kimi Respublikamızın kitabxalarındabiblioqrafik təsvirə dair 2013-cü il Milli dövlət standartı qədul edilənə qədər Rusiyanın 7.1-69; 7.1-76; 7.1-84 Dövlət standartları tətbiq edilirdi.

Onu da qeyd edək ki, hazırda Respublikadaəksər kitabxanalarda elektronkataloqda kataloqlaşdırılma prosesləri məhz MARCformatı əsasında təşkil edilən AKİS-lər (VTLS, VİRTUA, Liber, Librau, İRBİS və s.) vasitəsilə həyata keçirilir və buradakı təsvirlər də Beynəlxalq biblioqrafik təsvir qaydalarına əsaslanır.Ənənəvi kataloqlarda isə biblioqrafik təsvirlər "Sənədlərin biblioqrafik təsviri" (1984) standartı üzrə tərtib edilirdi ki, bu standartın nəşrindən 30 il keçmişdir. Bunun nəticəsində ənənəvi kataloqlarda verilən biblioqrafik təsvirlərlə elektron kataloqlarda verilən biblioqrafik təsvirlər arasında böyük fərqlərin yaranmasına səbəb olmuşdur.Nəsimivə Binəqədi rayron Mərkəzləşdirilmiş Kiabxana Sistemlərininbütün fondu elektron kataloqa daxil edilməsə də, hələlikhər iki MKS-də yeni alınmış ədəbiyyat elektron kataloqda əks etdirilir.

Artıq 2014-cü ildən Mərkəzləşdirilmiş Kitabxana Sistemlərində sənədlərin biblioqrafik təsviri "AZS 754-2013. Biblioqrafik yazı. Biblioqrafik təsvir: Ümumi tələblər və tərtib qaydaları" standartı üzrə tərtib edilir. İl ərzində MKS-ə daxil olan 1924 nüsxə ədəbiyyatın kataloqlaşdırılması aparılmışdır. Kataloq kartoçkalarının sayı 2482 nüsxə təşkil etmişdir. Onlardan elektron

nəşrlər 10, təbiət elmləri 56, Texnika və kənd təsərrüfatı 8, Tarix və siyasət 220, İqtisadiyyat 30, Hüquq 8, Mədəniyyət və incəsənət 926, Filologiya və bədii ədəbiyyat 1070, Din və fəlsəfə 12, Universal ədəbiyyat 142 ədəd kartoçka təşkil etmişdir. Həmin kartoçkalardan 2167 ədədiazərbaycandilində, 244 ədədi rus dilində, 71 ədədi ingilis dilində yazılmışdır.

Kitabxanada yardımçı ədəbiyyat fondunun, kataloqların və Mərkəzi (toplu) kataloqun yaradılması üzərində işlər davam etdirilir.

Aparılan tədqiqatlarla bağlı belə bir qənaətə gəlmək olar ki, Binəqədi şəhər MKS-də ədəbiyyatın kataloqlaşdırılması işinə daha ciddi yanaşılır. Burada yeni ədəbiyyatın 2014-cü il standartı üzrə bibliorafik təsvirinin tərtib edilməsi ilə yanaşı əvvəlki standartlar üzrə tərtib edilən biblioqrafik təsvirlərə də diqqət yetirilir və kataloqlar redaktə edilir. Bunu əsasən əlifba kataloquna aid etmək olar.

Bundan əlavə MKS-lərdə biblioqrafik təsvirə dair Milli Dövlət Standartının tətbiqi ilə bağlı bir sıra çətinliklər ortaya çıxır.Belə ki, hazırkı standartda biblioqrafik təsvirin yalnız mətni nəzərə alınmışdır. Biblioqrafik təsvirin başlığı haqqında isə heç bir məlumat verilmir. Halbuki, biblioqrafik təsvir iki hissədən (biblioqrafik təsvirin başlığı, biblioqrafik təsvirin mətni) ibarətdir. Kataloqlaşdırma işi ilə məşğul şəxslər biblioqrafik təsvirin başlığının müəyyələşdirilməsində müxtəlif çətinliklərlə qarşılaşırlar. Çünkü ənənəvi və elektron kataloqlarda təsvirin başlığında şəxsin adının, idarə və təşkilatların adlarının, coğrafi adların, nüfuzlu adların, nəsl adlarının müəyyənləşdirilməsi və onların axtarışının təmin edilməsi əsas şərtlərdən biridir. Bunun üçün ayrıca standartın qəbul edilməsi məqsədəuyğun hesab edilərdi. Yəqin ki, qeyd etdiyimiz məsələ gələşəkdə nəzərə alınacaq.

Biblioqrafik təsvirə dair Milli Dövlət Standartının tətbiqinin Respublikanın bütün MKS-də vahidliyini təmin etmək məqsədilə bir sira işlərin görülməsi də zərurudir. Yaxşı olardı ki, hazırkı standartın səmərəlitətbiqini həyata keçirmək məqsədilə bir sıra metodik vəsaitlər hazırlanıb çap ediləydi.

Respublika kitabxanalarınadaxil olan sənədlər içərisində elektron informasiya resursları da xüsusi yer tutur. Elektron nəşrlər həm resurs kimi, həm də ayrıca elektron sənəd kimi (məsələn, CD-ROM kitablar, jurnallar, soraq nəşrləri və s.) hazırlana bilər.Elektron resurslar ənənəvi sənəd formalarından bir sıra xüsusiyyətlərinə görə fərqləndiyi üçün onların müxtəlif növlərinə dair standartların işlənib hazırlanması dazəruridir.

## ƏDƏBİYYAT


1. “Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013 illərdə inkişafı üzrə Dövlət Proqramı”nıntəsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Respublika. – 2008. – 7 oktyabr.
2. AZS 754-2013. Biblioqrafik yazı. Biblioqrafik təsvir: Ümumi tələblər və tərtib qaydaları.- B.: Azərb. Resp.Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövl.Komitəsi, 2013.- 60 s.





3. Бахтурина, Т.А. Новый стандарт по библиографическому описанию: К внедрению ГОСТ- а 7.1 – 2003 // Библиография. – 2004. - №1. – С. 23-36.
4. Xələfov A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi.- B.: Azərnəşr, 2006.-312 s.
5. Xələfova, S.A. Azərbaycanda Dövlər kütləvi kitabxanalar şəbəkəsinin inkişafı (1970-1990).- B., 2007.- 160 s.
6. İsmayılov X. Kitabxana resurslarından istifadənin təşkilində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi (Milli kitabxananın iş təcrübəsi əsasında) \\ Kitabxanaşünaslıq və biblioqrafiya.-2014.-N2.-S.13-21.
7. Kitabxana işi haqqında Azərbaycan Respublikasının qanunu.- Azərbaycan.-1999.-14 mart.
8. Mustafayeva, S.M. Sənədlərin biblioqrafik təsvirində müasir təsvir qaydalarının tətbiqi: 1-ci məqalə. // Kitabxanaşünaslıq və biblioqrafiya.-2007.- №.1.- S. 40-45.
9. Mustafayeva, S.M. Sənədlərin biblioqrafik təsvirində müasir təsvir qaydalarının tətbiqi: 2-ci məqalə. // Kitabxanaşünaslıq və biblioqrafiya.-2007.- №.2.- S. 29-35.
10. Nəsimi rayon MKS-nin hesabatları
11.Binəqədi rayon MKS-ninhesabatları


С.М.Мустафаева

## ОРГАНИЗАЦИЯ КАТАЛОГИЗАЦИОННЫХ РАБОТ В ЦЕНТРАЛИЗОВАННЫХ БИБЛИОТЕЧНЫХ СИСТЕМАХ НАСИМИНСКОГО И БИНАГАДИНСКОГО РАЙОНОВ ГОРОДА БАКУ

### Р Е З Ю М Е


В данной статье раскрываются организации каталожных работв централизованных библиотечных системах.Особое внимание уделено на описание документов, применению различных стандартов по библиографическому описанию, а также внедрению первого национального стандарта по библиографическому описанию. В статье освещается опыт работы централизованных библиотечных систем Насиминского и Бинагадинского районов города Баку.


S.M.Mustafayeva

## MAİN FEATURE FORMATİON AND MODERN SİTUATİON OF THE DOCUMENT-İNFORMATİON RESOURCES THE CLS OFBAKU CİTY NASİMİ AND BİNAQADİ DİSTRİCTS

### S U M M A R Y


Abstract: This article describes the organization works in the catalog of centralized library systems. Particular attention is paid to the description of the documents, the application of different standards of bibliographic description as well as the introduction of the first national standard for bibliographic description. The article highlights the experience of centralized library system ofNasimi and Binagadi districts of Baku.